**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**çıxarış**

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın təsdiq edilməsi haqqında" 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli, "Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısının təsdiq edilməsi haqqında" 2011-ci il 3 avqust tarixli 77 nömrəli, "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" 2011-ci il 25 avqust tarixli 82 nömrəli və "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 16 mart tarixli 154-VI FR nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

3. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 avqust tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin

aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 4. | Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 3 | 3 | | |

3.2. 26 - 28-ci hissələr ləğv edilsin;

3.3. "Cəmi" hissəsinin "Cəmi" sütunu üzrə "113" rəqəmləri "103" rəqəmləri ilə, "aparat üzrə" sütununda "71" rəqəmləri "69" rəqəmləri ilə, "ərazi və yerli bölmələr üzrə" sütununda "40" rəqəmləri "32" rəqəmləri ilə əvəz edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli Qərarı ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Elektron xidmət növlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8-ci hissəyə aşağıdakı məzmunda 8.16 - 8.27-ci bəndlər əlavə edilsin:

| | |
|---|---|
| "8.16. | Məcburi dövlət sosial sığorta haqqı üzrə sığortaolunanlar haqqında məlumatın təqdim edilməsi |
| 8.17. | Əmək şəraitinə görə güzəştli əmək stajı hesablanan işçilərin siyahısının təqdim edilməsi |
| 8.18. | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi |
| 8.19. | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi |
| 8.20. | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi |
| 8.21. | Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi |
| 8.22. | Sığortaolunanlara məlumatların verilməsi |
| 8.23. | Pensiya kalkulyatoru |
| 8.24. | Pensiyaçıya məlumatların verilməsi |
| 8.25. | Dəfn üçün müavinətin ödənilməsi ilə bağlı müraciətin və sənədlərin qəbulu |
| 8.26. | İş yerindən elektron qaydada arayış alınması |
| 8.27. | Dövlət sosial sığorta sistemində xüsusi hesabın aktivləşdirilməsi" |

4.2. 23-cü hissə ləğv edilsin.

5. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

6. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “29” dekabr 2023-cü il

№ 152